**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ANAR VAQİF OĞLU HƏSƏNLİ**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA DİNİ-MƏDƏNİ DƏYƏRLƏRİN İNKİŞAF TENDENSİYALARI

**İxtisas: 7213.01 – Dinşünaslıq**

**Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun «Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** fəlsəfə üzrə elmlər doktoru, professor
**İzzət Əşrəf oğlu Rüstəmov**

**Rəsmi opponentlər:** fəlsəfə üzrə elmlər doktoru, professor
**Məhəmməd Alı oğlu Balayev**

ilahiyyat üzrə fəlsəfə doktoru, dosent
**Səbinə Ələsgər qızı Nemətzadə**

**Aparıcı təşkilat:** **Azərbaycan Texniki Universitetinin "Fəlsəfə və Politologiya" kafedrası**

Müdafiə «15» may 2013-cü ildə saat 13:00-da AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 8, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» ___________ 2013-cü ildə göndərilmişdir.

**Birdəfəlik Dissertasiya Şurasının elmi katibi,**

**ilahiyyat üzrə fəlsəfə doktoru:** **Z. A. Əbilova**

# I. İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə mədəni tərəqqi sahəsində əldə edilmiş mühüm nailiyyətlər ölkəmizin müstəqilliyinin möhkəmlənməsinə və davamlılığına şərait yaradan amillərdəndir. Müstəqil respublikamızın nüfuzlu beynəlxalq təşkilatlara, Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi onun beynəlxalq mövqeyinin möhkəmləndirməsinə, dünya ölkələri içərisində öz layiqli yerini tuta bilməsinə əlverişli imkan vermişdir. Azərbaycanın müstəqilliyinə xidmət edən mədəni tərəqqi dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əsaslar üzərində faydalı əlaqələrin inkişaf etdirilməsinə də şərait yaradır.

Azərbaycan bu gün sürətlə, hərtərəfli inkişaf edərək dünya sivilizasiyasına inteqrasiya etməkdədir. Müasir inteqrasiya prosesi isə çoxtərəfliliyi və mürəkkəbliyi ilə səciyyələnir. Bunu nəzərə alan ölkə rəhbərliyi inteqrasiya siyasətini həyata keçirərkən bu prosesin bütün detallarını və digər dövlətlərin əvvəllər buraxdığı səhvləri diqqətdən qaçırmır, ölkənin inkişafı istiqamətində səmərəli yollardan bəhrələnir, üsullardan istifadə edir.

Hazırda yüksək dünya standartlarına cavab vermək, yeniliyi qəbul və təbliğ etmək qarşıya qoyulan əsas məsələlərdəndir. Avroatlantik məkana inteqrasiyanın Azərbaycana ancaq fayda gətirməsi isə bu məkanda aparılan düzgün və ardıcıl siyasətdən asılıdır. Qloballaşma kimi böyük bir prosesin daxili və ayrılmaz komponenti olan inteqrasiya yolunda dini-mədəni, mənəvi dəyərlərin özünəməxsusluğunun qorunub saxlanması və varislik prinsipi əsasında gələcək nəsillərə çatdırılması gərgin zəhmət tələb etməklə hər zaman böyük aktuallıq kəsb edir.

Müstəqillik illərində Azərbaycanda dini-mədəni köklərə qayıdış, milli tariximizə həqiqi baxış, milli-mənəvi dəyərlərə hörmətin qorunması ən mühüm uğurlarımızdan hesab edilir. Ümummilli lider Heydər Əliyev cəmiyyətdə mənəvi dəyərlərin roluna xüsusi qiymət verərək qeyd edirdi ki, heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq[1].

Son illər ərzində Azərbaycan dini, milli və etnik tolerantlıq sahəsində əhəmiyyətli uğurlara nail olmuşdur. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar dinindən, millətindən, irqindən asılı olmayaraq Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost olaraq yaşamaq ənənələrini daha

---

[1] Əliyev H. Dinimiz xalqımızın mənəvi sərvətidir. Bakı, 1999, s.8

da möhkəmləndirmişdir. Azərbaycan dövləti tərəfindən mədəniyyətlər-arası dialoqun təşviqi məqsədilə beynəlxalq və milli səviyyədə həyata keçirilən tədbirlər ölkəmizin beynəlxalq arenada nüfuzunu artırmaqla yanaşı, xalqımızın həmrəyliyini daha da möhkəmləndirir və Azərbaycanı dünya mədəniyyətlərinə qovuşduran məkan kimi beynəlxalq aləmə təqdim edir.

Azərbaycan xalqının mənəvi mədəniyyətinin əsas tərkib hissəsi kimi dini-mədəni dəyərlərin tədqiqi Azərbaycan alimlərinin mühüm vəzifəsidir. İslam dini və onun yüksək əxlaqi keyfiyyət və dəyərlərinin Azərbaycan mədəniyyətində yeri, rolu, nəsildən-nəslə ötürülməsi, Azərbaycan dövlətçilik ənənələrinin formalaşmasına təsiri və s. problemlərin tədqiqi bu gün xüsusi aktuallıq kəsb edir.

Qloballaşma prosesi zamanı dini-mədəni dəyərlərin tənəzzül etməməsi və aşınmaması istiqamətində tutduğu mövqeyindən asılı olaraq hər bir vətəndaş öz vəzifəsini yerinə yetirməli, bu yöndə bütün bilik və bacarığını səfərbər etməlidir. Bu məsələ həm də alim və tədqiqatçıları da narahat etməli, onlar məntiqli fikir və ideyalarını irəli sürməlidirlər. Doğrudur, bu istiqamətdə bəzi tədqiqat işləri işıq üzü görüb, lakin bu hələ kifayət deyildir. Hazırda məsələ belə durur: necə etmək lazımdır ki, bizim milli-mənəvi dəyərlərimiz, əxlaqi qaydalarımız dünyanı qloballaşma prosesində uğurlu iştirakımıza zəmanət yaratsın, irəliləyişimizə bir növ təkan versin. Ancaq əksər ölkələrin timsalında bunun şahidi oluruq ki, qloballaşma prosesi ayrı-ayrı mədəniyyətlərə, millətlərin özünəxas dəyərlərinə bəzən zərbə vurmuş, yad elementlərin milli mədəniyyətlərin tərkibinə daxil olmasına səbəb olmuş, bu mədəniyyətlərin zəiflədilməsi istiqamətində müəyyən cəhdlər olmuşdur.

Ümumiyyətlə, dünya tarixində inteqrasiya və qloballaşma məsələlərinə birmənalı münasibət olmamışdır. Tədqiqatçılardan bəziləri bu məsələyə müsbət tərəfdən yanaşırsa, digərləri ona qarşı çıxır, qloballaşmanın dini-mədəni dəyərləri kökündən sarsıdacağını iddia edir və antiqloballaşma hərəkatının genişlənməsinə rəvac verirlər. Buna görə də qloballaşma məsələsinə müxtəlif yanaşmaların ətraflı tədqiq və təhlilinə ciddi zərurət yaranır.

Azərbaycan bütün dövlətlər tərəfindən dini, etnik, mədəni tolerantlığın bərqərar olduğu ölkə kimi tanınır. Qloballaşma dövrünün əsas tələblərindən biri də elə tolerantlıqdır. Bu da doğrudur ki, əgər dini, mədəni fərqlərə qarşı dözümlülük olmasa, müasir proseslər lazımi nəticə verməyəcəkdir. Ona

görə də milli dəyərlərə böyük önəm verərək tolerantlığın möhkəmlənməsi millətə əsla zərər gətirməz.

Ümumiyyətlə, qeyd edilməlidir ki, bu gün alimləri düşündürən aktual məsələlərdən biri də qloballaşma yolunda əzmlə addımlamaq üçün dini-mədəni dəyərlərimizdən yararlanmaq, sivilizasiyalı cəmiyyətin qurulmasında böyük əzm nümayiş etdirmək və bu zaman milli stereotipləri yaddan çıxarmamaqdır.

**Dissertasiyanın işlənmə dərəcəsi.** Dissertasiyanın mövzusu nisbətən az tədqiq edilmişdir. Problemin ayrı-ayrı aspektləri müxtəlif alimlər tərəfindən elmi cəhətdən araşdırılmışdır. Dünya ədəbiyyatında qloballaşmaya aid xeyli sayda əsərlər mövcuddur. Lakin qloballaşma şəraitində dini-mədəni dəyərlərin öyrənilməsinə nisbətən zəif diqqət yetirilməsi elmi tədqiqatlarda bir sıra boşluqların yaranmasına səbəb olmuşdur.

Tanınmış Qərb tədqiqatçılarından A. Toynbi, O.Şpenqler, A.Tokvill, F.Brodel, Bertels, Qoldsier, A. Mes, Əş-Şəhristani, İ.Vallerstayn, J. Vardenburq, Y. Bratford və b. mövzu ilə bağlı bir sıra sanballı əsərlərin müəllifi kimi tanınırlar. Lakin onları daha çox qloballaşma məsələləri maraqlandırmışdır. O. Şpenqler isə Avropanın süqutunu həm də milli-mədəni dəyərlərin tənəzzülü ilə bağlayır. İspan tədqiqatçısı A. X. Zarinkub isə İslam sivilizasiyasının meydana gəlməsi və bu gün İslam ölkələrindəki xalqların mənəvi dəyərlərində baş verən hallar və onlara təsir edən amillərin gücü və qaynaqları barədə yazır[1].

Rus alimləri də bu sahəyə maraq göstərmişlər. Onlardan L.N.Qumilev, J.Batay, D.E.Yeremeyev, R.Maksud, A.A.Qalkin, İ.Kosolapov, V.A.Turayev, Y.V.Yakoves və b. qloballaşmanın, inteqrasiyanın və sivilizasiyanın qarşılıqlı münasibətlərini təhlil etmiş, dünya sivilizasiyaları, siyasi, iqtisadi və mədəni inteqrasiya və onların mahiyyəti, inteqrasiya prosesinin lokal, regional və qlobal aspektlərini araşdırmış və bu aspektdə dini-mədəni dəyərlərdə baş verən dəyişiklikləri tədqiq etmişlər.

Türk alimlərindən Y. Sezen, Özbudun, A. Gürkan, K.Gürsoy, Bolay və İran filosof və din xadimlərindən Əli Şəriəti, S.M. Musəvilari, Məhəmməd Əfifi və b. cəmiyyətdə dini amilin rolunu diqqət mərkəzində saxlamışlar. Onlar cəmiyyətin inkişafını dini dəyərlərin daha da möhkəmlənməsi ilə əlaqələndirirlər.

---

[1] Заринкуб А. Х. Исламская цивилизация. Москва, 2004, 237 с.

Azərbaycanın filosof və tədqiqatçılarından R.Mehdiyev, S. Xəlilov, V. Məmmədəliyev, İ. Məmmədzadə, İ.Rüstəmov, R.Aslanova, Ə.Abasov, K.Bünyadzadə, S.Hüseynov, K.Əzimov, A.Əlizadə, Ə.Qurbanov, R.Mustafayev, Z.Quluzadə, A.Hacıyeva, R.Ulusel, H.Hüseynov və b. müasir şəraitdə dini-mədəni dəyərlərin qorunub saxlanmasını zəruri hesab edir və maraqlı fikirlər irəli sürürlər. Dini-mədəni dəyərlərin qorunmasında və təbliğində Milli Məclisin üzvü, UNESCO və İSESCO-nun xoş məramlı səfiri, Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyevanın xidmətləri də təhlilə cəlb olunur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycanda müasir qloballaşma şəraitində dini-mədəni dəyərlərin rolunun öyrənilməsi dissertasiyanın əsas məqsədini təşkil edir. Bu məqsədin həyata keçirilməsi aşağıdakı məsələlərin həllini zəruri etmişdir:

- qloballaşma anlayışının mahiyyətini açıqlamaq, onun ideya-nəzəri aparatını müəyyənləşdirmək;
- Azərbaycan elmində dini-mədəni dəyərlər məsələsinin qoyuluşunu araşdırmaq;
- Azərbaycanın inkişafında dini-mədəni dəyərlərin inkişaf xüsusiyyətlərini öyrənmək;
- insanların həyat tərzinə dini təsirlərin rolunu öyrənmək;
- sivilizasiyalararası dialoqun təşəkkülünü dini-fəlsəfi aspektdə araşdırmaq;
- qloballaşma şəraitində Azərbaycanda dini tolerantlığın vəziyyətini təhlil etmək;
-müasir proseslərdə Azərbaycanın ideya-fəlsəfi paradiqmasını açıqlamaq.

**Tədqiqatın ideya-nəzəri və metodoloji mənbələri** kimi filosofların, kulturoloqların, sosial-siyasi və politoloji fikir sahiblərinin yaradıcılığından istifadə olunur.

Dissertasiyada məntiqilik, tarixilik, müqayisə, sistem yanaşma metodlarına, tarixi-konkretlik və səbəbiyyət prinsiplərinə geniş yer verilmişdir. Müasir elmi paradiqmanın və tarixi dövrün tələblərini ödəyən təsəvvür və baxışlar sistemi tədqiqatın başlıca metodoloji-qnoseoloji əsaslarını təşkil edir.

**Dissertasiyanın elmi yeniliyi.** Azərbaycan fəlsəfəsində dini-mədəni dəyərlərdə baş verən dəyişikliklər qloballaşma şəraitində ilk dəfə olaraq bu

qoyuluşda öyrənilir. Tədqiqatın yeniliyinin aşağıdakı məqamlarını vurğulamaq olar:

- dini-mədəni dəyərlərin Azərbaycan elmində tədqiqi araşdırılmışdır;
- Azərbaycanın mədəni-mənəvi tərəqqisində dini-mədəni dəyərlərin inkişaf xüsusiyyətləri öyrənilmişdir;
- insanların həyat tərzinə dini təsirlərin rolu təhlil edilmişdir;
- submədəniyyətlər və onların dini-mədəni dəyərlərə təsiri araşdırılmışdır;
- «kütləvi mədəniyyət», «elitar mədəniyyət» və «mədəni şok» anlayışlarının həcminə diqqət yetirilmişdir;
- ayrı-ayrı dini təriqətlərin fəlsəfi mahiyyəti açıqlanmış və onların milli-mənəvi dəyərlərə təsirinə baxış keçirilmişdir;
- sivilizasiyalararası dialoqun təşəkkülü dini-fəlsəfi aspektdə araşdırılmışdır;
- qloballaşma şəraitində Azərbaycanda dini tolerantlığın vəziyyəti təhlil edilmişdir;
- müasir dövrdə Azərbaycanın ideya-fəlsəfi paradiqması açıqlanmışdır.

**Dissertasiyanın elmi–praktik əhəmiyyəti** onun elmi yeniliyi ilə sıx bağlıdır. Tədqiqatın nəticələrindən mədəniyyətşünaslıq, sosial fəlsəfə üzrə kursların tədrisi zamanı mühazirə mətnlərinin hazırlanmasında, tədris proqramlarının tərtibində, metodik vəsaitlərin işlənilməsində və bu mövzu ətrafında tədqiqat işi aparan tələbə, aspirant, elmi işçilər tərəfindən bir mənbə kimi istifadə oluna bilər. Dissertasiya işindən habelə ictimai-siyasi fikrimizi və mədəniyyətimizi öyrənən, xüsusilə bu problemlə məşğul olan mütəxəssislər, humanitar sahədə çalışan müəllimlər faydalana bilər, eyni zamanda qanunvericilik aktlarının hazırlanmasında, siyasi partiyaların və qeyri-hökumət təşkilatlarının fəaliyyətində istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun «Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri» şöbəsində müzakirə olunaraq müdafiəyə məsləhət görülmüşdür. Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin nəşr olunmuş məqalə və tezislərində, elmi seminar və konfranslarda etdiyi məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya Giriş, altı yarımfəsli əhatə edən iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# II.DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi araşdırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, dissertasiyanın elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın birinci fəsli **«Dini-mədəni dəyərlərin inkişaf xüsusiyyətləri və onlara münasibət»** adlanır və üç yarımfəsli ehtiva edir. **«Azərbaycanda dini-mədəni dəyərlər tədqiqat obyekti kimi»** adlanan birinci yarımfəsildə Azərbaycan elmində dini-mədəni dəyərlərin tədqiqinin təhlili verilir, tanınmış alim və tədqiqatçılarımzın mövzu ilə əlaqədar yazdığı əsərlərə münasibət bildirilir, bu əsərlərdə əksini tapmış yeni fikirlər ətraflı şərh edilmişdir. Qeyd olunur ki, hər bir xalqın, millətin varlığının ifadəsi olan ideyaların, dünyagörüşünün, həyat və düşüncə tərzinin deformasiyaya uğraması ilə həmin birliyin, millətin tənəzzülü başlayır. Tarix sübut edir ki, ən güclü sistemlərin məhvi sosiomədəni və siyasi-mədəni məkanda yaşayan insanlar üçün ümumi olan mənəvi dəyərlərin, ideyaların radikal transformasiyasının mənəvi davamı kimi meydana çıxır.

Qloballaşma şəraitində öz dini-mədəni dəyərlərini qoruyub saxlamaq, milli özünəməxsusluğu, milli çalarları gözləmək, min illər boyunca formalaşa-formalaşa bu günə qədər gəlib çatmış dəyərlərə sadiq qalaraq inkişaf prosesinin bütün istiqamətlərində onlara bir daha sahib çıxmaq əsas məsələlərdən biridir. Buna hər bir millətini sevən vətəndaş çalışmalı, milli mədəniyyəti aşınma və tənəzzüldən hifz olunması yönündə öz bacarığını ortaya qoymalıdır.

Bu gün dini-mədəni dəyərlərin dərindən öyrənilməsi, təbliği məqsədilə xeyli sanballı əsərlər yazılır, tədqiqatlar aparılır, məqalələr işıq üzü görür, rəy sorğuları keçirilir, televerilişlər hazırlanır, konfranslar təşkil olunur.

Akademik R. Mehdiyev, AMEA-nın müxbir üzvü S. Xəlilov, prof. İ. Rüstəmov, prof. R. Aslanova, prof. İ. Məmmədzadə, prof. A. Paşazadə, prof. R. Əliyev, prof. A. Əhədov, prof. S. Hüseynov, prof. Ə. Abasov, prof. R. Ulusel, prof. T. Əfəndiyev, fəlsəfə elmləri doktoru K. Bünyadzadə, fəlsəfə elmləri doktoru A. Əlizadə, tarix elmləri doktoru A. Göyüşov, fəlsəfə doktoru A. Yunusov, fəlsəfə doktoru H. Hüseynov,

fəlsəfə doktoru E. Əsgərov, fəlsəfə doktoru E. Miri[1] və b. öz əsərlərində dini-mədəni dəyərləri bir daha araşdırır, onların qorunması istiqamətində öz fikir və münasibətlərini bildirirlər. Bu əsərlərdə tolerantlıq şəraitində İslamın yayıldığı regionlarda əks etdirdiyi xüsusiyyətlər, xalqların mənəvi-mədəni dünyasına İslamın təsiri geniş şərh edilmişdir. İnsan hüquq və azadlıqlarının təmin olunmasını ali məqsəd hesab edən dövlətimizdə dini etiqad azadlığının gerçəkləşməsi mexanizmi, cəmiyyətdə müəyyən yer tutan dini təşkilatların, din xadimlərinin cəmiyyətin mənəvi durumunun kamilləşməsi və saflaşmasındakı rolunun, dinin siyasətə təsiri imkanlarının, dini-mənəvi dəyərlərin qorunmasının təkzibolunmazlığı tədqiq olunur. Qeyd etmək lazımdır ki, cəmiyyətimizin demokratikləşməsi və humanistləşməsi keçmişin mənəvi irsinə olan nihilist münasibətin aradan qaldırılması, hər bir xalqın mədəni uğurlarının dərindən öyrənilməsi zərurətinin dərk edilməsi, intellektual və yaradıcı fəaliyyətin daha da güclənməsinə təkan verir. Daha doğrusu, xalqın mənəvi nailiyyətlərinin əsas nəticələri sırasında dini dəyərlər mühüm yer tutur.

---

[1] Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, 2005; Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, 2003; Mehdiyev R. Qlobal inteqrasiya və Azərbaycanda fəlsəfi fikrin yenidən nəzərdən keçirilməsinə dair. /«Azərbaycan» qəzeti, 5 may 2009; Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı, 2007; Xəlilov S. Dinlərin və sivilizasiyaların dialoqu /«Azərbaycan» qəzeti. 13 noyabr 2009; Xəlilov S. Qloballaşma, «ikili standart» və elmi – texniki tərəqqinin meyarları/Fəlsəfə və sosial siyasi elmlə – 2, Bakı,2003; Aslanova R.N XXI əsr: Yeni mədəniyyət məkanına inteqrasiya. Bakı: 2007; Aslanova R.N. İslam mənəvi irsi və müasirlik. Bakı, 2000; Aslanova R.N. İslam və mədəniyyət. Bakı, 2002; Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı; 2009; Bünyadzadə K. İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı, 2010; Bünyadzadə K. Təsəvvüf fəlsəfəsinin ilk mnbələri, Sərrac Tusinin «əl-Lümə» əsəri. Bakı, 2003; İ. Rüstəmov. Seçilmiş əsərləri. Bakı 2012; Əfəndiyev T. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı, 2011; Əhədov A. Azərbaycanda islamın modernləşdirilməsi. Bakı,1994; Paşazadə A.Ş. Qafqazda İslam. 1991; Ulusel R. Qloballaşma və harmoniya fəlsəfəsi. Bakı, 2005;Əliyev R.Y. İslam və Azərbaycan mədəniyyəti. Bakı, 1998; Hüseynov S. Azərbaycan dini tolerantlığa və sadiqliyə töhfə verən örnəkdir. «Xalq» qəzeti, 19 fevral 2011; Həsənli H.S. İslam mədəniyyətində elm. Bakı, 1998; Hüseynov H.B. Şərq-Qərb münasibətlərində qloballaşma: ideoloji-siyasi mübarizə anlamında. Bakı, 2008;

Bütün alimlər və tədqiqatçılar bu fikirdədirlər ki, hazırda dini-mədəni köklərimizə qayıdış istiqamətində, milli mənsubiyyətimizin təkcə formal surətdə deyil, həm də məzmun baxımından təsbit olunması uğrunda aparılan mübarizə elmi-nəzəri əsaslara malik olmalıdır. Xüsusən, televiziyanın, mətbuatın milli mənəviyyata yad elementlərlə dolduğu bir vaxtda sağlam dini-mədəni mühitin qorunması, milli dəyərlərimizin daha da zənginləşdirilərək nəsildən-nəslə ötürülməsi xüsusi aktuallıq kəsb edir.

İntellektual qüvvələr öz fəaliyyətləri ilə dövlətin mədəniyyət sahəsindəki siyasətinin müasir durumunu təhlil edir və bu siyasətin perspektivlərinə aydınlıq gətirməyə çalışırlar. Mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil respublikanın mədəni tərəqqisi qarşısında əsas vəzifələrdən biridir. Bu mənada Azərbaycan dövləti öz daxili və xarici siyasətini yeni tarixi şəraitə, müasir tələblərə uyğun olaraq, xalqımızın tarixi və mədəni ənənələrinə, dilimizə, dinimizə, milli-mənəvi dəyərlərimizə istinad edərək həyata keçirir. Müstəqilliyimizin əldə olunmasından sonra həyata keçirilən mədəni tərəqqi milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün böyük zəmin yaratmışdır. Xalqımızın əldə etdiyi bu böyük nailiyyət, milli sərvətimiz olan mənəvi dəyərlərimizin istifadəsini, bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını və inteqrasiyasını təmin edir. Azərbaycan xalqı suveren dövlət quraraq, islahatlar aparmaqla öz milli-əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübələrindən istifadə edir.

Bu fəslin **"Qloballaşma şəraitində həyat tərzinə sosial-fəlsəfi və dini-mədəni baxışlar"** adlanan ikinci yarımfəslində dini dünyagörüşün insanların həyatına təsiri, şəhər və kənd həyat tərzi, ayrı-ayrı qrup və birliklərin həyat tərzi, «kütləvi mədəniyyət»in ümumi mədəniyyətə təsiri, cəmiyyətdə «mədəni şok» vəziyyəti öyrənilir, müxtəlif alim və tədqiqatçıların bu məsələlərə münasibəti incələnir.

Bir sıra müəlliflər hesab edirlər ki, həyat tərzi cəmiyyətin, sosial və etnik birliklərin, kollektivlərin və ayrılıqda hər bir şəxsin müəyyən ictimai-iqtisadi formasiya çərçivəsində, təbii-coğrafi, sosial-iqtisadi, siyasi, mənəvi-əxlaqi şəraitlə vəhdətdə götürülən həyat fəaliyyəti formalarının məcmusu, onların həyat fəaliyyəti üsuludur.

Hesab edirik ki, həyat tərzi daha çox keyfiyyət hadisəsidir. O, insanın həyat tərzində hansı fəaliyyət növlərinin və hansı səbəbdən aparıcı rol oynadığı, üstünlük təşkil etdiyini aydınlaşdırır, ictimai idealın

sosial-tələbatlara uyğun gəlib-gəlmədiyini əks etdirir. Bunlardan başqa həyat tərzi problematikasında «həyat səviyyəsi», «həyat üslubu» və s. kateqoriyalar da mövcuddur. «Həyat səviyyəsi» fərdin fəaliyyət göstərməsi üçün malik olduğu sərvətlərin kəmiyyət göstəricisidir və başlıca olaraq adambaşına düşən nemətlərin miqdarı, maddi rifahın səviyyəsi ilə müəyyən olunur. «Həyat üslubu» isə fərdin öz həyat tərzini özü müəyyən edə bilməsi imkanını ifadə edir və həyat tərzini fərdin davranışı səviyyəsində nəzərdən keçirməyə imkan verir. Bu zaman insanın konkret davranışı, əməlləri ön plana keçir. Hamının eyni vəzifə və hüquqlar daşımalı olduğu və eyni cür düşünməyə təşviq edildiyi sovet cəmiyyətindən fərqli olaraq liberal dəyərlərin üstünlük təşkil etdiyi müasir cəmiyyətdə insanların həyat üslubu da müxtəlifdir.

Dissertasiyada «kənd həyat tərzi» ilə «şəhər həyat tərzi» arasındakı fərqlər araşdırılır. Kənddə dini-mədəni dəyərlərin qorunması daha sabit olduğu və mühafizəkarlıq saxlanıldığı halda, şəhərdə «yeni mədəniləşmə» - müasirləşmə, yad mədəniyyətlərin elementlərininin doğma mədəniyyətə sürətlə daxil olması - akkulturasiya prosesi gedir, mədəni şok adlanan xüsusi bir vəziyyət yaranır. Mədəni şokun yaratdığı vəziyyət şəhər mühitində kütləvi mədəniyyətin geniş yayılmasına və qəbuluna gətirib çıxarır. Öz mahiyyətinə və ifadə formalarına görə bu mədəniyyət tipi mənəvi və maddi dəyərlərin kütləvi istifadəsinin orta səviyyəsinə uyğunlaşıb. Mədəniyyət nümunələrinin yayılmasının kütləviliyi istehsalın kütləvi, konveyer imkanları ilə onların yayılması və istifadəsinə əsaslanır, əyləndiricilik funksiyası ön plana çəkilir, oxuyan, dinləyən və seyr edən tamaşaçılarda – kütlədə primitiv hisslər-emosiyalar aşılanır. Belə mədəniyyət ənənə, millət tanımır, onun zövqü və idealları başgicəlləndirici sürətlə dəyişir, modanın tələblərinə uyğunlaşır. Kütlə mədəniyyəti geniş auditoriyaya söykənir, dəyişən zövqləri oxşayır və xalqın incəsənəti olmaq iddiasındadır. Bu mədəniyyətin yayıldığı cəmiyyət, bəzi mütəfəkkirlərin fikrincə[1], bəşəriyyətin obyektiv inkişaf prosesləri, sənayeləşmə, urbanizasiya, kütləvi tələbatların kəskin artımı, bürokratik sistemin mürəkkəbləşməsi və şübhəsiz ki, kütləvi informasiya vasitələrinin görünməmiş inkişafının nəticəsidir. XX əsrin ortalarından başlayaraq kütləvi

---

[1] Варденбург Ж. Мировые религии с точки зрения Ислама. С.Петербург: «Университетская книга», 2005, с. 83

mədəniyyət kommersiya mədəniyyəti, əyləncə sənayesi, pop mədəniyyəti (şoubiznes), məişət mədəniyyəti və s. formalarda meydana çıxmışdır.

Bakıda və bütövlükdə Azərbaycanda yayılan kütləvi mədəniyyət əsasən Qərb həyat tərzinin və müasir ənənələrin yayılmasına xidmət edir. Məlumdur ki, açıq tipli Qərb sivilizasiyası özünü bəşər mədəniyyətinin inkişafının ən yüksək mərhələsi hesab etməklə digər mədəniyyətlərin də yeni inkişafa tabe edilməsini iddia etməkdə və həmin mədəniyyətləri yaradan xalqların sosial-siyasi və mənəvi-əxlaqi həyatını öz dəyərlərinə uyğun tənzimlənməsi tələbini verməkdədir. Özünü Qərb sivilizasiyasına inteqrasiya edən müasir Azərbaycan cəmiyyətində real ictimai münasibətlər sahəsində kütləvi mədəniyyətin təsiri və verdiyi təsəvvürlər güclənir və bu proses ümumbəşəri proseslərin tərkib hissəsi kimi özünü göstərir. Azərbaycanın yeni ictimai-siyasi sistemə yön alması nəticəsində «müasirləşmə» düşüncəsi sosial şüurda özünə xüsusi yer almışdır. Xüsusilə, şəhərdə indiyə qədər mövcud olmayan və tanınmayan mədəni dəyərlərin qəbulu «müasirlik» kimi dərk edilir. Əslində «müasirləşmə», müasirlik özü Qərbdən gələn kütləvi mədəniyyəti mənimsəmə kimi ifadə olunur. İctimai şüurda özünə yer alan bu məsələ insanların keçmiş irslərindən ayrılaraq yeni ənənələr, stereotiplər mühitinə atılması ilə bağlıdır. Bir çoxları əvvəlki irsin köhnəlik kimi «gülünc», «zəif» olduğundan onun atılması düşüncəsindən çıxış edirlər. Bu cür təsəvvülər bilavasitə onların yaşam tərzinə və dünyagörüşünə təsir edir.

Müşahidələr göstərir ki, Qərb həyat tərzi şəhərli gənclərin müəyyən hissəsi üçün daha cəlbedici görsənir və onların bir çoxu buna can atırlar[1]. Qloballaşma şəraitində inteqrasiya meyilləri bütün xalqları və dövlətləri yaxınlaşdırır. Ümumilikdə, kütləvi mədəniyyət müasir şəhər mədəniyyətinin leytmotivinə çevrilmişdir və onun hələ uzun müddət hökmranlıq edəcəyi şəksizdir.

Şəxsi azadlıq, valideynlərdən qeyri-asılılıq, təşəbbüskarlıq hissləri gənclərin bir hissəsini milli adətlərdən uzaqlaşmağa, digər mədəniyyətlərə meyl etməyə sövq edir. AMEA-nın müxbir üzvü, prof. S.Xəlilovu bu məsələ düşündürdüyündən o, bir neçə sual ünvanlayır: «Gənclərimizin təlim- tərbiyəsini mənəvi təkmilləşmə istiqamətində necə yenidən

---

[1] Azərbaycanda siyasi İslam: sosioloji sorğu vasitəsilə problemi öyrənmə cəhdi. Azərbaycan Araşdırmaları Vəqfinin nəşri. Əlyazması. Bakı, 2004.

qura bilərik? Min illər boyu ata- babalarımızdan bizə həm də genetik olaraq miras qalmış böyük mənəvi sərvətləri kənardan öyrənməklə yanaşı, öz daxilimizdə necə aşkar edə bilərik? Özümüz mənən yüksəlmədən, övladlarımızın tərbiyəsini «müasir tələblər səviyyəsində» necə qura bilərik?»[1]

Müasir cəmiyyətdə gənc nəsil ilə yaşlı nəsil arasında müəyyən «uçurumun» olması haqqında fikirlər meydana çıxır. Əslində belə «uçurum» hər zaman olmuşdur və yaş mərhələsindən asılı olaraq dəyişmişdir. XX əsrin 60-cı illərində «mədəni partlayış» baş vermişdir. Məhz şəhər mühitində aydın seçilən «mədəni şok» insanların həyat tərzinə, adət-ənənələrinə, məişətinə, əxlaq və davranışına təsir göstərməyə bilməzdi. Adət-ənənələrdə, mərasimlərin keçirilməsində baş vermiş dəyişiklişlər eyni zamanda ailə-məişət münasibətlərində, əxlaq-davranış normalarında da özünü biruzə verir. Şəhər mühitində insanların çoxluğu, kütlənin daim hərəkətdə olması həmin münasibətləri müəyyən çərçivəyə salmışdır.

Həmin fəslin üçüncü yarımfəsli **«Müasir Azərbaycanın inkişafında dini-mədəni dəyərlərin transformasiyası»** adlanır və burada bir sıra məsələlər təhlilə cəlb olunur ki, bunların araşdırılması günümüz üçün böyük aktuallıq kəsb edir. Belə ki, iqtisadi və siyasi sistemin dəyişdiyi, yeni ideologiyaların və dünyagörüşünün təşəkkül tapdığı, qloballaşmanın genişləndiyi bir şəraitdə insanların şüur və düşüncə tərzində, hadisələri və prosesləri dəyərləndirmə meyarında, mədəniyyətə və ümumiyyətlə, həyata baxışında yeni meyillərin formalaşdığı müşahidə olunur. Davranışın yeni stereotipləri və formaları meydana gəlir.

Sürətlə inkişaf edən və qloballaşan cəmiyyətdə vaxtaşırı iqtisadi, sosial və mədəni tələbatlar da dəyişir. Nəticədə zövqlər, maraqlar, stillər müxtəlifləşir, fərdiləşmə və sosial identifikasiya güclənir. Kütləvi mədəniyyət heç də hamını qane etmir və tələbatları ödəmir. Ona görə də cəmiyyətdə yeni həyat stilləri meydana çıxır. Əsas mədəniyyətdən fərqlənən submədəniyyətlər yaranır.

«Submədəniyyət» anlayışının müxtəlif elmi təsəvvürləri və izahları vardır. Submədəniyyət – şəxsiyyətin daxil olduğu və özünü sərbəst hiss etdiyi, şəxsiyyətdə «mən» anlayışının «biz» anlayışı ilə qarışdığı və özünəməxsus baxışlar və davranış qaydaları ilə fərqlənən qrupa xas dəyərlər sistemidir. Şaforost submədəniyyət anlayışını belə dəyərləndirir:

[1] Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı, 2007, s. 300

«Submədəniyyət hər şeydən əvvəl əsas cəmiyyətdən fərqlənən qrupun norma və dəyərlər sistemidir. O, yaş, etnik törəmə, din, sosial qrup və ya yaşayış yeri kimi amillərin təsiri altında formalaşır. Submədəniyyət dəyərləri əksəriyyətin qəbul etdiyi milli mədəniyyəti inkar etmir[1]. İ.M.Morozov isə submədəniyyət anlayışı altında fəaliyyət sahəsini müəyyənləşdirən, davranış tərzini, xüsusi dil və həyat xüsusiyyətlərini yaradan, bu və ya digər mədəni ənənələr çərçivəsində yaranan ictimai maraqlara əsaslanan qrupun cəmini təsvir edir [2].

Göründüyü kimi, tədqiqatçıların fikirləri xeyli dərəcədə üst-üstə düşür və onlar submədəniyyətlərin ayrıca qrup tərəfindən yaradıldığını qəbul edir. Lakin submədəniyyətləri yaradan amillərə gəldikdə isə fikirlər müxtəlifləşir. Din, dil, məkan, yaş, həyat tərzi, sosial mühit kimi amillər submədəniyyəti formalaşdıran amillər kimi nəzərdən keçirilir.

Müasir dövrdə submədəniyyət anlayışı həm də «yeraltı mədəniyyət» (subterranean culture) və «zirzəmi mədəniyyəti» (underground culture) anlayışlarını da özündə ehtiva edir Avropa və Qərb elmi ədəbiyyatında çox işlənən bu terminlər hələlik bizdə az işlədilir. Bununla belə, adı çəkilən mədəniyyətlər artıq mövcuddur və şəhərimizin reallıqlarına çevrilmişdir.

Yuxarıda göstərilən elmi fikirlərə və şəxsi müşahidələrə əsaslanaraq bu fikrə gəlmək mümkündür ki, mövcud hakim mədəniyyətin əksinə olaraq submədəniyyət hakim dəyərlər sisteminə reaksiya olaraq cəmiyyətdə tabe sosial-struktur mövqedə duran sosial qrup tərəfindən yaradılmış qrup şəklində normalar, davranış stereotiplərinin mənalar, dəyərlər, ifadə vasitələri və həyat tərzini əks etdirir. Prof. S.Xəlilov haqlı olaraq qeyd edir ki, insanı formalaşdığı ictimai mühit, ətraf aləm, mövcud dəyərlər sistemi, sosial və hüquqi normalar, mövcud dövlət quruluşu, iqtisadi münasibətlər, ailə münasibətləri, təhsil sistemi və s. bu kimi elementlərin sintezindən ibarətdir[3].

Submədəniyyətlər müxtəlif amillərin təsiri altında formalaşır. Dissertasiyada submədəniyyətlərin formalaşmasına təsir göstərən amillər bu və ya digər cəhətlərinə görə qruplaşdırılır: əlamətlər (ideologiya birliyi, mentallıq, simvolika, mədəni kod və s.), davranış (adətlər, rituallar,

---

[1] Религия, история и современность. М: «ЮНИТИ», 1998, с.35
[2] Религия, история и современность. М:2008,с. 46
[3] Xəlilov S. Mənəviyyat fəlsəfəsi. s. 238

normalar, davranış və stereotip modelləri), sosial (sosial qruplar, təbəqələr və s.) xüsusiyyətlər və bunlar hamısı birlikdə həmin cəhətləri təşkil edir. Bundan başqa submədəniyyətləri onları daşıyan ictimai tiplər əsasında da təsnifləşdirmək olar. Məsələn, yaş və cinsə görə (uşaq, gənc, qadın-ana, təqaüdçilərin park yığıncağı); sosial-peşə yönümünə görə (fəhlələr və ziyalılar, kompüter, tibb, həmçinin ordu sahəsində işləyənlər, dilənçilər və cinayətkar-məhbuslar); dini; etnik; ərazi (yerliçilik və s.); asudə vaxtın keçirilməsi və s. .

Yuxarıda verilmiş təsnifat əsasında Bakıda mövcud olan həyat tərzlərini və submədəniyyətləri təxminən belə qruplaşdırmaq olar: 1)Yaş və cinsə görə: Uşaq-gənc submədəniyyətləri: hip-hopçular: (skeytboard həvəskarları, brekdansçılar, reperlər, fləşmobçular, qraffitistlər); rokkerlər; avtoşlar və avtoşkalar və s. 2) sosial-peşə yönümünə görə: kompüter həvəskarları (kuberkultura); «peşəkar» dilənçilər; cinayətkar-məhbuslar (bratvalar, mujiklər, şustryaklar, üzdəniraqlar və s. «mastlar»); pop-mədəniyyət; şampunçiklər və s. 3) dini əlamətlərə görə: nurçular; vəhhabilər; xristian sektaları və s. 4) dil xüsusiyyətlərinə görə: rusdillilər.

Adı çəkilən sosial-mədəni qruplar istər həyat tərzinə və həyat stilinə, istərsə də etnomədəni xüsusiyyətlərinə görə əsas - milli mədəniyyətdən fərqlənir. Bu fərqlər 80-ci illərin sonlarına qədər nisbətən az nəzərə çarpırdısa, 90-cı illərdən sonra getdikcə dərinləşir və ümumi mədəniyyətə güclü təsir göstərir.

Bundan əlavə qeyd etmək lazımdır ki, yenicə müstəqillik qazanmış bir ölkəyə gələn xristian, hinduizm və radikal müsəlman təşkilatları verilən azadlıqlardan sui-istifadə etməyə başladılar, vətəndaşlarımızın dini mənsubiyyətini dəyişməyə, casusluğa sövq etməyə, hərbi sirrləri öyrənmək kimi çirkin niyyətlərə əl atmağa başladılar. Belə missionerlərin yarıtmaz dini təbliğatının ölkəmiz üçün milli təhlükə mənbəyinə çevrilməsi narahatlıq yaratmaya bilməzdi. Dini missionerlərin, ayrı-ayrı təriqət üzvlərinin belə dağıdıcı fəaliyyətinin qarşısı vaxtında alındı və 2011-ci ildə dini etiqad haqqında qanunvericiliyə bəzi əlavələr olundu, beləliklə də gənclərin həmin təşkilatlarda birləşməsinin, qanunsuz təbliğat vasitələrinin və fəaliyyətin yolverilməz olduğu bildirildi.

Dissertasiyanın ikinci fəsli **«Müasir dövrdə Azərbaycanın dini-mədəni dəyərlərinin inkişaf problemləri»** adlanır. Bu fəsildə cəmiyyətdə baş verən hadisələr, multimədəniyyət və son illər daha çox əhəmiyyət verilən dialoq mədəniyyəti dini-fəlsəfi səpkidə araşdırlır, Azərbaycanda

dini tolerantlığın mövcud durumu ətraflı təhlil olunur, qloballaşma şəraitində Azərbaycanın dini-mədəni dəyərləri və ideya-fəlsəfi paradiqması açıqlanır.

Bu fəslin birinci - **«Sivilizasiyalararası dialoqun təşəkkülü dini-fəlsəfi aspektdə»** adlanan yarımfəslində qeyd olunur ki, dinlərarası dialoqun mahiyyət və xarakterinin transformasiyasının əsas səbəblərindən biri beynəlxalq qaydanın, bütövlükdə dini bəşər irsi ilə bağlı olan yeni mədəni, etnik və tarixi reallıqların dəyişilməsi olmuşdur. Dinlərarası mürəkkəb və birmənalı olmayan dialoq sakitləşdirici, ümidverici və lazım gəldikdə bir çox xalqlar üçün təsəlli ola bilər.

BMT Baş Assambleyasının 65-ci sessiyasında qəbul olunmuş qətnaməyə əsasən hər il fevral ayının birinci həftəsinin bütün dinlər, etiqadlar və konfessiyalar arasında "Ümumdünya Harmonik Münasibətlər Həftəsi" kimi qeyd olunmasının qərara alınması dinlərarası körpünün formalaşdırılması baxımından önəm daşımaqla, ölkəmizin həmmüəllif qismində qoşulduğu sənəddə bütün dövlətlər hər il bu həftə ərzində dinlər və etiqadlar arasında qarşılıqlı hörməti, etimadı, sülh, humanizm və xeyirxahlıq ideyalarını təşviq etməyə və dəstəkləməyə çağrılır ki, bu da qeyd olunan istiqamətdə fəaliyyətin güclənməsinə dəstək verir.

Dini etiqad azadlığının da əsas insan hüquq və azadlıqlarının tərkib hissəsinə daxil olduğunu, həmçinin dövlətdaxili qanunvericilikdə və Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrdə təsbit olunduğunu nəzərə alaraq ölkəmizdə vicdan və dini etiqad azadlığının təmin edilməsinə xüsusi diqqət yetirilir.

İslamın beynəlxalq münasibətlərə təsirini tədqiq edən tanınmış teoloq Məhəmməd Əfifi "İslam və beynəlxalq münasibətlər" əsərində yazır: "İnsan şəxsiyyəti yalnız azadlıq üçün şərait olan yerdə, yəni azad yaşayış yerinin, azad gediş-gəlişin, etiqadın, fikir azadlığının mövcudluğu, nöqteyi-nəzərin azad ifadə olunduğu, azad dövlətin mümkünlüyü şəraitində inkişaf edir və formalaşır. Buna görə də islam və köləlik ziddiyyət təşkil etdiyindən bir araya sığmazlar"[1].

İslama görə, Allah insanları yer üzərində ədalətli davranmaq, mərhəmət və şəfqət hissini unutmamaq, birinin fikrinin, hüququnun məhdudlaşdırmasına yol verməmək, ulu Tanrı qarşısında bərabər olduqlarını dərk etmək üçün yaratmışdır. Məhz buna görə də islamda

---

[1] Мухаммед Афифи. Ислам и международные отношения. Б.,1986, с. 63.

insan hüquqlarının təbiəti cəmiyyətdə insanın yeri və rolu, insan və dövlət münasibətlərinin sivil qaydada tənzimlənməsi, insan hüquqlarının dərəcəsi və məqsəd təyinatı kimi problemləri dərindən dərk etmək üçün "İslam ədalət konsepsiyası"nın mahiyyətini nəzərdən keçirmək kifayətdir.

Frensis Fukuyama "Tarixin sonu" məqaləsində kommunizm sisteminin süqutu ilə tarixin özünün xoşbəxt sonluğuna çatdığını və bəşəriyyətin gələcək inkişafının liberal-demokratik əsasda inkişaf edəcəyini iddia edirdi.[1] Fukuyamanin fikrincə, dünya qocalıb, yeni sivilizasiyaların formalaşması imkanı tükənib. Dünya birliyinin yeganə xilası isə ümumbəşəri sivilizasiyanın quruculuğuna doğru irəliləməkdədir. Vacib şərtlərdən biri isə şərq xalqları, millətləri, dövlətləri ilə inteqrasiyasıdır. ABŞ-ı bu proseslərdə baş inteqrator hesab edən müəllif XXI əsrdə formalaşacaq düşüncə tərzinə məhz bu dövlətin maraqları baxımından yaxşılacağını göstərir.

Digər proqnoz amerikan alimi S.Hantinqtonun "Sivilizasiyaların toqquşması və yeni dünya nizamının yenidən qurulması" əsərində verilir. Müəllifin fikrincə, keçmiş sosializm və kapitalizm arasında olan antaqanizm sivilizasiyaların toqquşması, ilk növbədə qərb, islam və pravoslav sivilizasiyalar arasındakı ziddiyyətlərlə əvəz olunacaq.[2]

Müəllifin fikrincə, dünya çox gəncdir və yaradıcı enerji ilə zəngindir. Əvvəlki əsrlərin tarixi təcrübəsindən bəhrələnən XXI əsr yeni sivilizasiyaların formalaşması üçün geniş imkanlar yaranacağı dövr olacaq. Əsrin əsas inkişaf modeli isə hakimiyyətin qollara bölünməsinin sürətlənməsi, regionçuluqla müşayiət olunan differensiasiya, hakimiyyətə və siyasətə münasibətdə plüralizmin, mövqe müxtəlifliyinin fəallaşması ilə xarakterizə olunan divergensiya və suverenləşmədən ibarətdir. Bu meyillərin ideya əsasını isə millətlərin öz müqəddəratlarını təmin etməsini absurd səviyyəyə çatdıran millətçilik ideyası təşkil edir. Müəllifin fikrinə əsasən, əgər XX əsr ideologiyaların münaqişəsi əsri idisə, XXI əsr sivilizasiyaların və ya dinlərin qarşıdurması əsrinə çevriləcək.

İslamı fanatizmlə, başqa dinlərə dözməməklə, dini ekstremizm, terrorizm və bu kimi neqativ hallarla bağlamağa çalışan antiislamşünasların dediklərinin əksinə olaraq İslam sivilizasiyası, onun mənəvi-əxlaqi dəyərləri İslam dininin fəaliyyət göstərdiyi ölkələrdə milli həmrəy-

---

[1] Фукуяма Ф. Конец истории. Вопросы философии, 1990, №3, с. 57
[2] С.Хантингтон С. Столкновения цивилизаций. «Полис» 1994, № 1.

liyinin qərarlaşması, dövlətlər arasında əmin-amanlıq şəraitinin yaradılması üçün özünəməxsus, əvəzolunmaz rol oynayır.

Məlumdur ki, "Terrorizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu fəaliyyət göstərir. Bu Qanun heç bir milli, ideoloji, dini mənsubiyyətdən asılı olmayaraq, ümumiyyətlə, terrorizmə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyən edir, terrorizm əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının fəaliyyətini əlaqələndirir, habelə həmin orqanların və vətəndaşların hüquqlarını və vəzifələrini təsbit edir.

İslam dini bugünkü sivilizasiya əsrində zorakılığa qarşı çıxır, insanları xoşbəxt gələcək qurmağa səsləyir və təəssüflə bildirir ki, hazırda sivilizasiyalı xalqlar öz ağlından, fiziki və maliyyə imkanlarından sülh və insanların rifah naminə deyil, hamının məhv olması üçün silahlar düzəltməyə istifadə edirlər.

Dinlərarası dialoqun konseptual əsaslarının işlənib hazırlanması mürəkkəb və uzun prosesdir. O, dünyanın tez dəyişən sosial-siyasi mənzərəsi və yeni sivilizasiya çağırışları ilə bir qədər mürəkkəbləşir. Bu şəraitdə müxtəlif dinlər arasında dini azadlığı qəbul etmə və zəngin əməkdaşlıq ənənələrinə malik olan regionların təcrübəsi böyük əhəmiyyət kəsb edir. Belə regionlardan biri, əsrlər boyu sivilizasiyalar, mədəniyyətlər və dinlərin qovuşmuş olduğu Azərbaycandır. Planetin mədəni müxtəlifliyinin saxlanması və dünya sivilizasiyasının gələcəyi bu dialoqun çox zaman uğurla həyata keçirilməsindən asılıdır.Sülh mədəniyyəti və dinlərarası dialoq güclə qəbul etdirilə bilməz. Bu proses hər ölkədə və regionda, onun tarixindən, mədəniyyətindən və ənənələrindən asılı olaraq özünəməxsus şəkildə inkişaf edir.

Bu fəslin ikinci yarımfəsli **«Azərbaycanda dini tolerantlıq yeni müstəvidə»** adlanır və burada Azərbaycanda ayrı-ayrı dinlərin daşıyıcıları arasındakı tolerant münasibətin müasir mənzərəsi açıqlanır, bütün insanlara qanunvericilik çərçivəsində dini ayin və mərasimləri yerinə yetirmək imkanını verilməsindən bəhs olunur.

Yaşadığımız dramatizmlə, mürəkkəb sosial-siyasi hadisələrlə müşayiət olunan hazırkı dövrdə qarşımızda duran mühüm məsələlərdən biri ailədə, cəmiyyətdə, müxtəlif etnik qruplar, dini konfessiyalar, dövlətlər, millətlər arasında ayrı-seçkiliyin bütün təzahür formalarını aradan qaldırmaq problemi durur. Başqa sözlə insanlar arasında sülh dəyərlərini yaymaq, sülh mədəniyyətini təbliğ etmək lazım gəlir. Lakin dünyanın

müxtəlif yerlərində saysız-hesabsız insan qrupları üçün sülh hələ də əlçatmaz məqsəd olaraq qalır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tolerantlığin, dini, milli dözümlülüyün milli mentalitetimizin ayrılmaz cəhətlərindən olduğunu dəfələrlə qeyd etmişdir. Prezident İ.Əliyev bildirmişdir ki, yüzilliklər boyunca Azərbaycanda xalqlar vahid və mehriban bir ailə kimi yaşamış, etnik və dini icmalar arasında dözümlülük əlaqələri formalaşmış, milli, irqi, dini ayrı-seçkiliyə yol verilməmiş, müxtəlif dinlərə mənsub insanlar sülh və əmin-amanlıq şəraitində dinc-yanaşı fəaliyyət göstərmişlər[1].

Respublikamız dünyada ənənəvi dinlər olan islamın, xristianlığın və iudaizmin - məscidin, kilsənin və sinaqoqun dinc yanaşı fəaliyyət göstərdiyi, tolerantlığın mövcud olduğu nadir ölkələr sırasındadır. Dini etiqad azadlığının və dini qurumların qanuni fəaliyyətinin təmin edilməsi istiqamətində ölkəmizdə bütün zəruri şərait və imkanlar yaradılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsində məhz «Vicdan azadlığı»nın yer alması, «Dini etiqad azadlığı haqqında» Azərbaycan Respublikasının Qanununun mövcudluğu bu istiqamətdə insanlarımız üçün geniş hüquqlar bəxş etmişdir. Azərbaycan Respublikasının vətəndaşları dinə münasibətindən asılı olmayaraq siyasi, iqtisadi, sosial və mədəni həyatın bütün sahələrində qanun qarşısında bərabərdirlər. Vətəndaşın dinə münasibətinin rəsmi sənədlərdə göstərilməsinə yalnız öz istəyi ilə yol verilir.

Müasir dövrdə Bakıda müxtəlif dinlərə məxsus onlarla dini icma, təriqət və sektalar fəaliyyət göstərir. Onlardan bir neçəsi daha kütləvi yayılaraq ətrafına çoxlu tərəfdar toplamışdır. Hər bir dini təşkilatın üzvü (fəalı) sözsüz onun qayda və şərtlərinə tabedir. Onların həyat tərzi, davranışı, dünyagörüşü məhz aid olduğu dini təşkilatın diqtəsinə, şərtlərinə əsaslanır. Beləliklə, bu dini təşkilatlar çevrəsində və onların ideologiyasını qəbul edən insanlar arasında yeni dini təmayüllü submədəniyyətlər yaranır.

Mədəniyyətlərarası dialoq və dinlərarası əməkdaşlığın inkişaf etdirilməsi, bu prosesə bütün cəmiyyətin, dövlət və qeyri-dövlət qurumlarının,

---

[1] Azərbaycan Respublikası Prezidentinin çıxışı / «Azərbaycan» qəzeti, 4 dekabr 2008.

vətəndaş cəmiyyətinin cəlb edilməsi, uşaqlar və gənclərə dini tolerantlığın aşılanması məqsədilə təhsil müəssisələrində maarifləndirmə tədbirlərinin keçirilməsi, dinşünas və ilahiyyatçı alimlərin bu tədbirlərdə iştirakı, xalqlararası, sivilizasiyalararası əməkdaşlığın, sülhün bərqərar olmasına xidmət edən dinlərarası dialoqun inkişaf etdirilməsi, bu mövzuda müxtəlif nəşrlərin hazırlanması, KİV-in dini maarifləndirmə işinə cəlb olunması, dini etiqad azadlığına dair qanunvericiliyin təkmilləşdirilməsi və monitorinqi, dini maarifləndirmə işinin gücləndirilməsi və vicdan azadlığına hörmət ruhunda tərbiyənin təbliğ edilməsi, Azərbaycanın tolerantlıq siyasətinin dünyada tanıdılması və bununla bağlı digər təkliflər bu sıradandır. Qeyd etmək lazımdır ki, dini-mədəni dəyərlərin təbliğinin tərəfdarı olan və fəaliyyətində bu dəyərlərə daim diqqətlə yanaşan İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), professor Elmira Süleymanova milli və dini tolerantlığın Azərbaycan cəmiyyətinin səciyyəvi xüsusiyyəti və ən mühüm nailiyyətlərindən olduğunu nəzərə alaraq, ölkədə təmsil olunan əsas dini icmalar daxil olmaqla «Din vasitəsilə sülh mədəniyyəti» dinlərlərarası şurasının yaradılmasını təklif etmişdir[1].

Dissertasiyanın ikinci fəslinin **«Qloballaşma şəraitində Azərbaycanın dini-mədəni dəyərləri və ideya-fəlsəfi paradiqması»** adlanan üçüncü yarımfəslində dini-mədəni dəyərlərin qorunmasının və azərbaycançılıq ideyasının yayılmasının zəruriliyi əsaslandırılır.

Bu gün Azərbaycanda yaşayan subetnosların mədəniyyətlərini, sayca çoxluq təşkil edən etnosla müqayisə etdikdə nə qədər oxşar və yaxın tarixi-mədəni xüsusiyyətlərin şahidi oluruq. İdeologiyanın gücü onun milli mənlik şüurunda nə qədər yer alması nöqteyi-nəzərdən müqayisə edilərsə onda biz azərbaycanlıların milli mənlik şüurunda yer almış azərbaycançılığın tarixi zərurət olduğunu dərk etməliyik.

Azərbaycançılıq etnik, sosial və siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlının, ölkə vətəndaşının Azərbaycana, onun milli-mədəni dəyərlərinə olan sevgi və məhəbbətinin gündəlik həyat norması və fəaliyyət strategiyasıdır. Azərbaycançılıq ideyasının tarixi kökləri qə-

---

[1] Azərbaycan Respublikasında Ombudsman təsisatı və insan hüquqlarının inkişafı. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), Professor Elmira Süleymanovanın ümumi redaktəsi ilə, Bakı: Bakı Universiteti, 2007, 266 s.

dimdir. Ancaq azərbaycançılıq ideologiyasının formalaşma prosesi XX əsrin I rübünə təsadüf edir. Məhz bu dövrdə mədəni və siyasi mühitdə Azərbaycanın yeri və rolu ətrafında fikirlər ziddiyyətli də olsa, formalaşmağa başlamışdı. Ancaq bu hələ elitar səviyyədə gedən proses idi. Bütünlükdə, xalqın bu ideya ətrafında birliyi üçün zaman tələb olunurdu. Demokratik Cumhuriyyətin işğalından sonra isə bu ideya mühacirət fəaliyyəti formasına qədəm qoymuşdur. Hazırda ölkədə aparılan düşünülmüş siyasət nəticəsində Azərbaycanın tarixi-mədəni dəyərlərinin zənginliyi, milli adət-ənənələrinin möhkəmliyi artır, milli-mənəvi dəyərlərimizə sahib çıxmaq istiqamətində mühüm işlər aparılır. Dünyada baş verən qloballaşma prosesi yalnız regional inteqrasiya və transmilliləşmə ilə müşayiət olunmur. O həm də regional, lokal səviyyədə dezinteqrasiya yaradır, qloballaşmaya cəlb edilən yeni cəmiyyətlərin daxili tarazlığını pozur. Cəmiyyətdəki kollektiv, etnik, ərazi və sosial eyniliyin köhnə formalarının zəifləməsi və dağılması yeni struktur müxtəlifliyinin və sosial diferensiasiyanın formalaşmasının təməlini yaradır.

70-ci illərdə Azərbaycançılıq yeni vüsət xətti ilə seçilirdi. Azərbaycançılıq ideologiyasının təməl prinsipləri daha aydın görünməyə başlayırdı. Heydər Əliyevin bu istiqamətdə səyləri və tarixi təşəbbüsləri azərbaycançılığın rolunu artırır və bu onun formalaşması prosesini dərinləşdirirdi.

Azərbaycançılıq yüksək əxlaqi normalarla yanaşı yeni dünyəvi dəyərləri də özündə birləşdirir. Mədəniyyətin və əxlaqın qloballaşmanın mənfi stereotiplərinə qarşı müəyyən mənada müqavimət göstərdiyi bir dövrdə azərbaycançılıq ideologiyasının rolu və əhəmiyyəti başlıca daşıyıcı və göstəricidir. Bu baxımdan azərbaycançılıq ideologiyasının bazisində Azərbaycan mədəniyyətinin özülü dayanır. Akademik Ramiz Mehdiyev öz əsərlərində azərbaycançılıq ideologiyasının genişlənməsinin zəruriliyini inkarolunmaz elmi dəlillərlə əsaslandıraraq bunun ölkənin gələcəyi üçün böyük əhəmiyyət daşıdığını bildirir[1].

Azərbaycanda 1993-cü ildən başlayan modernləşmə ideologiyası çoxcəhətliliyi sayəsində səmərəli olmuşdur. O, inkişafının ilk səviyyəsində ideologiyaya az bənzəyirdi, daha çox qloballaşma şəraitində ölkənin strateji inkişaf konsepsiyası funksiyasını yerinə yetirirdi. Modernləşmə konsepsiyasının 1996-cı

---

[1] Mehdiyev R. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı: «Şərq-Qərb», 2008, s. 615

ildə formalaşan ikinci və əsas səviyyəsi ölkə əhalisinin ən fəal hissəsini özünə cəlb etdi. Bu səviyyədə yeni mühafizəkarlıq, liberalizm və vətənpərvərlik prinsipləri vəhdət halında birləşdi. Digər ölkələrlə müqayisədə dünya kontekstində onlara çatmaq və regional kontekstdə isə qabaqlayıcı inkişaf ideyası milli modernləşmə ideologiyasının əsası oldu. Bu ikili məqsəd ölkəmizdə son iki yüz ildə tətbiq edilmiş "müstəmləkə şüuru" komplekslərinin aradan qaldırılmasına kömək göstərir.

Azərbaycan dövlətində həyata keçirilən milli siyasət kursu Konstitusiyanın Azərbaycan Respublikasının bütün ölkə vətənaşlarının ümumi və bölünməz vətəni olması kimi əsas prinsiplərindən birinə əsaslanır.

İşin «**Nəticə**» hissəsində tədqiqta yekun vurulur və əldə olunan nəticələr ümumiləşdirilir.

**Dissertasiyanın əsas məzmunu müəlifin çap olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. İslamda Demokratiya, Yeniləşən dünyanın sosial-siyasi və iqtisadi problemləri (məqalələr toplusu), Bakı Dövlət Universiteti, Bakı Universiteti nəşriyyatı, 2007, s. 128-132
2. Müasir sivilizasiyaya inteqrasiya prosesində Azərbaycanda dini-mədəni dəyərlər, AMEA aspirantlarının elmi konfransının materialları, may 2010, s. 402-409
3. Qlobal və milli-mənəvi dəyərlərin həyat tərzinə təsiri, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, Elmi Əsərlər, beynəlxalq elmi nəzəri jurnal, N 2 (15), 2010, s. 68-75
4. Submədəniyyətin milli-mənəvi dəyərlərə təsiri, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, YUNESKO-nun təsis etdiyi "Ümumdünya Fəlsəfə Günü"nə həsr olunmuş beynəlxalq elmi nəzəri konfrasının materialları, 2011, s. 299-307
5. İnteqrasiya və sivilizasiya fenomeninin çoxçalarlı baxış bucaqları, Qloballaşma şəraitində humanitar elmlərin aktual problemləri mövzusunda keçirilmiş respublika elmi-praktik konfransının materialları, Bakı Avrasiya Universiteti, 15 mart 2011, s. 329-332
6. Milli mədəniyyətdə islam dəyərləri, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, Elmi Əsərlər, Beynəlxalq elmi nəzəri jurnal, N 2 (17), 2011, s. 132-138
7. Dini-mənəvi dəyərlərin submədəniyyətlərə təsiri, Şərq fəlsəfəsi problemləri, Beynəlxalq elmi-nəzəri jurnal N 1, 2011, s. 75-79

8. Формирование гражданского общества на постсоветском пространстве, «Гілея: науковий вісник», Національний педагогічний університет імені М.П.Драгоманова, Українська Академія Наук 56 (N 1), Kiev, 2012, s. 646-650

9. Vicdan və etiqad azadlığının gender ölçüləri, “Azərbaycanda gender problemləri: mövcud vəziyyət və əsas istiqamətlərin inkişafı” mövzusunda dəyirmi masanın materialları, Bakı şəhəri, 14 mart 2012-ci il, s. 85-93

10. Qloballaşan dünyada submədəniyyətlər, Dövlət və Din, İctimai fikir toplusu, mart-aprel 2012, N 2 (28), s. 53-58

11. İslam və insan hüquqları, Gənc alimlərin II Respublika İnnovativ İdeya Yarmarkası” çərçivəsində “Yeni çağırışlar; müasir şəraitdə elmi innovativ tədqiqat işlərinin təcrübi və tədqiqi əsasları” Gənc alimlərin elmi konfransının materialları, Bakı şəhəri 25-27 iyul 2012, s.305-309

12. Azərbaycançılıq - bizi birləşdirən dəyər, "Azərbaycan dünyası" beynəlxalq jurnal, Avqust 2012, N 105, s. 80-81

13. Terrorçuluq və şiddətə qarşı mübarizədə dinin yeri və rolu, Din və etiqad azadlığı: hüquqi, siyasi, ictimai aspektlər mövzusunda beynəlxalq tərkibli respublika konfransı, tezislər toplusu, Azərbaycan Milli Elmlər Akademiyası, İnsan Hüquqları İnstitutu, 2012, s. 62-64

*Анар Гасанлы*

## Тенденции развития религиозно-культурных ценностей в Азербайджане в условиях глобализации

### Резюме

Диссертация посвящена исследованию тенденций развития религиозно-культурных ценностей в Азербайджане в условиях глобализации. Диссертация состоит из Введения, двух глав, включающих шесть параграфов, Заключения и списка использованной литературы.

Первая глава диссертации под названием «Особенности развития религиозно-культурных ценностей и отношение к ним» охватывает три параграфа. В них анализируются работы известных учёных по данной теме, показано отношение автора к ним, подробно комментируются отраженные в них новые мысли. Далее, автор исследует вопрос влияния религиозного мировоззрения на жизнь людей, на городской и деревенский образ жизни, на образ жизни отдельных групп и объединений, а также влияние общей культуры на «массовую культуру». Кроме того, автор анализирует состояние «культурного шока» в обществе, подробно описывается отношение различных ученых и исследователей к данным вопросам. Отмечается, что за годы независимости наблюдается возврат к религиозно-духовным корням, объективный взгляд на национальную историю. Самым важным достижением автор считает сохранение в нашей республике уважительного отношения к национально-духовным ценностям.

Во второй главе диссертации под названием «Проблемы развития религиозно-культурных ценностей в Азербайджане на современном этапе» с религиозно-философской точки зрения исследуются события, происходящие в обществе, мультикультурализм, а также культура диалога, которым в последнее время придается большое значение. Далее, подробно анализируется религиозная толерантность в Азербайджане, предоставленные людям в рамках закона возможности для претворения в жизнь религиозных обрядов и церемоний, а также даётся философская парадигма религиозно-культурных ценностей и идей в условиях глобализации, обосновывается охрана религиозно-культурных ценностей и распространение идеологии азербайджанства.

*Anar Hasanli*

**The development tendencies religious-cultural values in a globalization condition in Azerbaijan**

**Summary**

The thesis is dedicated to the development tendencies of religious and cultural values in conditions of modern globalization in Azerbaijan.

The thesis consists of two chapters covering six paragraphs. In “Introduction” the actuality of the theme is substantiated, the extent of the problem treatment is examined, the aim and application of the research determined the way of the author's methodological approach is brought to light, the scientific novelties and practical significance of the dissertation are shown. The first Chapter of the thesis is titled “The features of development of religious-cultural values and attitude thereto” and covers three paragraphs. There is provided the analysis of study of religious-cultural values in Azerbaijani science, attitude to the works by well-known scientists and researchers on the corresponding theme is shown, and reflected the comprehensive commentaries on the new thoughts achieved. Furthermore same time the influence of the religious world upon human life, urban and country mode of life, some groups' and unities' way of life, impact of “the mass culture” on general culture, situation of “cultural shock” in society, are studied, the attitude of different scientists and researchers to this problem is considered. It is noted that in the years of independence the return to religious-moral roots in Azerbaijan, the true view of our national history, preservation of respect to national values are considered as the most important achievement of us.

The second Chapter of the thesis is titled “The problems of development of religious-cultural values” of Azerbaijan in the modern period. In this chapter the events occurred in a society in the light of multi-culture and dialogue culture attached even more importance in recent years are investigated in the religious-philosophical context. The situation of tolerance exists in Azerbaijan is analyzed in details, granting all people a possibility of performing their religious rites and ceremonies within the framework of the legislation is stated, the philosophical paradigm of religious-cultural values and idea in condition of globalization is elucidated, the necessity of preserving the religions is being grounded.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ РУКОПИСЕЙ им. М. ФИЗУЛИ**

*На правах рукописи*

Анар Вагиф оглы Гасанлы

# ТЕНДЕНЦИИ РАЗВИТИЯ РЕЛИГИОЗНО-КУЛЬТУРНЫХ ЦЕННОСТЕЙ В АЗЕРБАЙДЖАНЕ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

**7213.01 – Религиоведение**

## АВТОРЕФЕРАТ

**диссертация на соискание ученой степени**
**доктора философии по философии**

**БАКУ – 2013**